**Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında 2016-cı il martın 8-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qətər Dövləti Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2016-cı il
№ 886

**Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti və Bələdiyyə və Ətraf Mühit Nazirliyi tərəfindən təmsil olunan Qətər Dövləti Hökuməti,

bərabərlik və qarşılıqlı mənfəət prinsipləri əsasında iki ölkə arasında əlaqələri inkişaf etdirmək və kənd təsərrüfatı sahəsində iqtisadi, elmi və texniki əməkdaşlıq əlaqələrini genişləndirmək arzusunda olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər öz müvafiq səlahiyyətləri və milli qanunvericilikləri çərçivəsində hər iki ölkənin kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan özəl sektor, müəssisələr və təşkilatlar arasında əlaqələrin qurulmasının təşviqi ilə bağlı razılığa gəlirlər.

Maddə 2

Tərəflər aşağıdakı sahələr üzrə əməkdaşlığı təşviq və inkişaf etdirirlər:

1. birgə kənd təsərrüfatı layihələrinin hazırlanması üzrə səlahiyyətli qurumlarla əlaqələndirmə və kənd təsərrüfatı sahəsində investisiya imkanlarının araşdırılması;
2. məhsul istehsalı: kənd təsərrüfatı məhsulları və toxum istehsalı üçün müasir texnologiyalar;
3. heyvandarlıq və quşçuluq sənayesi;
4. kənd təsərrüfatı məhsullarının istehsalı zamanı ətraf mühitin qorunması;
5. kənd təsərrüfatı mütəxəssisləri üçün təlim və təhsil;
6. kənd təsərrüfatının müxtəlif sahələri üzrə simpoziumlar, seminarlar, konfranslar, sərgilər və yarmarkalar haqqında məlumat mübadiləsi;
7. Tərəflərin mümkün qarşılıqlı maraqlarından irəli gələn digər istiqamətlər.

Maddə 3

Tərəflər bu Anlaşma Memorandumunun əhatə dairəsinə daxil olan sahələrdə koordinasiya məqsədi ilə məsləhətləşmələr apara bilərlər. Belə görüşlərin yeri, tarixi, gündəliyi və xərcləri qarşılıqlı razılıq əsasında müəyyənləşdirilir.

Maddə 4

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılığı Tərəflər arasında diplomatik kanallar vasitəsilə danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 5

Bu Anlaşma Memorandumuna hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı əsasında edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Anlaşma Memorandumunun 7-ci maddəsinə müvafiq olaraq qüvvəyə minir.

Maddə 6

Bu Anlaşma Memorandumu hər bir ölkənin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

Bu Anlaşma Memorandumu Tərəflərin iştirakçısı olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

Maddə 7

Bu Anlaşma Memorandumu Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili hüquqi prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə qüvvədə qalır və Tərəflərdən biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onu ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti eyni müddətlərə uzadılacaqdır.

Bunun təsdiqi olaraq, müvafiq qaydada öz hökumətləri tərəfindən səlahiyyət verilmiş aşağıda imza edənlər bu Anlaşma Memorandumunu imzaladılar.

Bakı şəhərində miladi təqvimlə 8 mart 2016-cı il tarixində, müvafiq olaraq hicri təqvimlə 1437-ci il tarixində, hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**
*(imza)*

**Qətər Dövləti**
**Hökuməti adından**
*(imza)*